HARUN YƏHYA

# ÇARLZ DARVİN VƏ SEHRLİ ÇƏLLƏK



HARUN YƏHYA (ADNAN OKTAR)

# ÇARLZ DARVİN VƏ SEHRLİ ÇƏLLƏK

*Çəlləkçi Darvinin səhvləri və ona inananların hekayəsi — uşaqlar üçün fosillər və yaradılış.*

— 5 fəsil —

# Mündəricat


1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Çəlləkçi Darvinin səhvləri 9

4 Çəlləkçi Darvin və ona inananların hekayəsi 15

5 Nəticə 55

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

# Çəlləkçi Darvinin səhvləri

İnsanları, bitkiləri və heyvanları, qısacası bütün canlıları Allah yaratmışdır. Sizi, ananızı, atanızı, bacı-qardaşlarınızı, qohumlarınızı, yoldaşlarınızı, pişikləri, itləri, gözəl qoxulu çiçəkləri, nəhəng ağacları, rəngarəng kəpənəkləri, quşları və balıqları, ləzzətli meyvələr verən bitkiləri yaradan Aləmlərin Rəbbi olan Allahdır. Yaşadığı dünyaya səmimi bir gözlə baxan hər kəs bu açıq-aşkar həqiqəti dərhal fərq edər.

Ancaq, Allahın yaratdığı bu gözəlliklər mövzusunda doğru söyləməyən bəzi insanlar vardır. Bu insanlar, təkamül nəzəriyyəsi deyilən və doğru olmayan bir fikri müdafiə edirlər. Çox səhv iddialarla dolu bu fikir; bütün canlıların təsadüfən, yəni öz-özlərinə yarandıqlarını iddia edir. Bu səhv düşüncə ilə insanları aldatmağa çalışanlara "təkamülçü" deyilir.

Çox səhv bir düşüncə olan təkamül nəzəriyyəsini, dövrümüzdən təxminən 150 il əvvəl Çarlz Darvin adında bir adam ortaya atmışdır. Ona görə, bütün canlılar təsadüfən ortaya çıxmışdır. Yaşadığı müddət boyunca insanları yazdığı kitablarla bu yalana inandırmağa çalışan Darvindən sonra, indiki vaxtda yaşayan təkamülçülər də insanları hələ də aldatmağa çalışmaqdadırlar. Halbuki müasir elm, bütün canlıları Allahın yaratdığını isbat etməkdədir. Ancaq təkamülçülər bu həqiqətlərə baxmayaraq, hələ də təkamül yalanını müdafiə edə bilməkdədirlər.

Yaxşı uşaqlar, Allahın canlıları necə yaratdığını siz heç düşünmüsünüz?

İnsan da daxil olmaq üzrə hər canlının bədəni hüceyrələrdən meydana gəlir. Hüceyrələr adi gözlə görülə bilməyəcək qədər kiçikdirlər. Bir milyon dənəsi bir yerə toplansa ancaq bir iynə ucu qədər yer tutar. Yəni onları yaxından görmək və araşdırmaq istəsəniz, çox inkişaf etmiş



Bir çox hissədən ibarət olan hüceyrə sxematik olaraq belə görünür. İnsan bədəninə aid bütün məlumatlar burada olan DNT molekuluna kod olaraq yazılmışdır. ENDOPLAZMİK RETİKULUM Zülal və digər molekulların nəqliyyatı Hüceyrənin əsas enerji qaynağıdır. Hüceyrəyə giriş çıxışı nəzarət edər HÜCEYRƏ PƏRDƏSİ QAPILARI

mikroskopdan istifadə etməniz lazımdır. Bu qədər kiçik olan hüceyrələr fövqəladə bir quruluşa sahibdirlər. Belə ki, bildiyiniz bütün texnoloji alətlərdən; televizordan, kompüterdən, məktəbə gedərkən mindiyiniz avtobusdan, yolda gördüyünüz böyük bir zavoddan daha mükəmməl bir quruluşa malikdir.

Qısacası, hər bir hüceyrə dayanmadan, sanki zavod kimi işləyir. Nəhəng bir zavodda olan enerji stansiyaları, istehsal mərkəzləri, xəbərləşmə və kompüter sistemləri, daşıma vasitələri, laboratoriyalar, idarəetmə bölmələri və daha bir çox sistemin bənzərləri, sizin hər bir hüceyrənizin içində mövcuddur.

Yaxşı bəs, bir zavodun; fırtına nəticəsində, öz-özünə, təsadüfən meydana gəldiyini söyləmək doğru olar? Təbii ki, xeyr. Məhz eyni şəkildə "Təbii şərtlər və təsadüflər nəticəsində canlılar meydana gəldi" deyənlər də bunun kimi ağıldan kənar bir şey söyləmiş olurlar. Darvin və tərəfdarları məhz belə məntiqsiz bir düşüncəni müdafiə etməkdədirlər.

Madam təkamülçülər hələ də belə bir şeyin ola biləcəyini iddia edirlər, o zaman onlara belə bir təcrübə etdirək. Təkamülçülər bir çəlləyin içinə, bir canlını yaratmaq üçün lazım olduğunu düşündükləri nə qədər maddə varsa qoysunlar. Məsələn bu çəlləyə, canlılığı meydana gətirən bütün amin turşularını, zülalları, karbon, fosfor, kalsium, keratin kimi elementlərin hamısını qoysunlar. Daha sonra bu qarışığa kənardan nə

təsir etmək istəyirlərsə etsinlər. Məsələn çəlləyi qızdırsınlar, soyutsunlar, üzərinə ildırımlar salsınlar, elektrik versinlər...

Çəlləyə qoyduqları maddələri istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Həmçinin bu qarışığın başında milyardlarla hətta trilyonlarca il, bir-birlərinə atadan oğula vəsiyyət edərək keşik çəksinlər. Və heç bir şeyi təsadüflərə buraxmadan, qarışığın hər anını nəzarət edərək, bir-birlərinə məsləhətləşib, dünyanın ən qabaqcıl bioloqlarından, genetiklərindən, fiziklərindən, təkamül mütəxəssislərindən fikirlər alsınlar. Bir canlının yaranması üçün hansı şərtlərin var olması lazım olduğuna inanırlarsa hamısını istifadə etməkdə sərbəst olsunlar...



Bütün bu şüurlu və ciddi səylərə baxmayaraq bu çəlləkdən canlılığa dair bir şey əsla çıxara bilməzlər. Nə edirlərsə etsinlər yenə də bu çəlləyin içindən, tovuz quşlarını, sərçələri, dovşanları, tutuquşularını, atları, kərgədanları, qarpızları, naringiləri, gülləri, yasəmənləri, cökə ağaclarını, albalıları, çiyələkləri, bananları, hind qozlarını, şabalıdları, qarğıdalıları, xurmaları, əncirləri, zeytunları, limonları, üzümləri, ərikləri, sincabları, bayquşları, qarışqaları, bal arılarını və s. çıxara bilməzlər.

Nə edərlərsə etsinlər bu çəlləyin içindəki atomlar; Eynşteyn, Nyuton kimi kompleks problemlər həll edən dahi elm adamlarını; Picasso, Mikelancelo kimi incəsənət və estetik cəhətdən möcüzələr yaradan sənətçiləri; Bethoven, Motsart kimi insan ruhuna zövq verən melodiyalar bəstələyən musiqiçiləri; ixtiralar edən, özünü meydana gətirən atomları mikroskop altında araşdıran elm adamlarını; Atatürk kimi böyük dövlət adamını; Fevzi Çaxmaq, Fateh Sultan Mehmet kimi yüksək dahi liderləri; Humphrey Bogart, Charlton Heston kimi rol qabiliyyəti olan aktyorları; Britney Spears, Ricky Martın, Michael Jackson kimi sənətçiləri; rəqs edən, mahnı oxuyan, simmetriyadan, estetikadan, rənglərin uyğunlaşmasından zövq alan, avtomobil dizayn edən, kitab yazan, kitab oxuyan, öyrənən, öyrəndiklərini yaddaşında saxlayan, düşünən, ağladan, həyəcanlanan, sevinən, sevgi, mərhəmət və şəfqət duyan, darıxan, sobadakı keksin qoxusunu hiss edincə iştaha gələn, yediyi yeməyin dadından zövq alan, gülməli bir hadisəyə gülən, dostları ilə sevinən və ya bir fikri müdafiə edən insan zəkasını qəti olaraq yarada bilməzlər.

Şüursuz atomları necə bir araya gətirdiyinizdən asılı olmayaraq, bu canlıların heç birini, hətta onlardan hər hansı birinin tək hüceyrəsini yarada bilməzlər.

O halda bütün insanlığın məlumat təcrübəsi və səyi ilə əsla yarana bilməyəcək canlılığı, şüursuz atomların, kor təsadüflərin köməyi ilə yarandığını necə iddia edə bilərlər? Açıq şəkildə aydın olacağı kimi ağılı və vicdanı olan bir insan, bütün canlıların və insanların, təsadüflərin əsəri olmasının mümkün ola bilməyəcəyini dərhal anlayar. Heç bir şübhəyə qapılmadan, ağılı və vicdanı ilə düşünən hər insan, bütün bu varlıqları yaradanın, üstün bir ağıl, sonsuz məlumat və bənzərsiz bir güc sahibi olan Allah olduğunu qəti olaraq bilər.

Kitabın sonrakı səhifələrində təkamül nəzəriyyəsini müdafiə edənlərin, insanları necə aldatdıqlarını göstərmək üçün sizə çəlləkçi Darvinin başından keçən hadisələri izah edəcəyik.

Bu nəzəriyyənin bir yalan olduğunu izah etməmizin əhəmiyyətli bir səbəbi daha var:



Biri təkamül nəzəriyyəsinə inanmanızı istədiyində bu kitabda oxuduğunuz həqiqətləri xatırlayıb, bu adamın sizi yanıltmağa çalışdığını anlaya bilər və ona hər şeyi sonsuz elm sahibi olan Uca Allahın yaratdığını izah edə bilərsiniz.

İndi həyatını çəlləyin başında keçirən çəlləkçi Darvinin və təqibçilərinin vəziyyətini birlikdə görək.

FƏSİL

# Çəlləkçi Darvin və ona inananların hekayəsi

Çəlləkçi Darvin gəncliyində gəmi səfərinə çıxar. Bu səyahətdə, canlılar haqqında düşüncəsində bəzi suallara cavab tapacağını düşünür.



**Darvin: Məhz Qalapaqos adaları... Tədqiqatlarımı orada davam etdirəcəyəm.**

Darvin Qalapaqos adalarında gəzərkən diqqət çəkən rənglərə və görünüşə sahib quşlara rast gələr.

**Darvin: Bu quşların dimdikləri nə qədər də maraqlıdır... Bu gözəl qanadlar necə meydana gəldi görəsən?**



Uzun sürən səyahətdən sonra İngiltərəyə geri dönən Darvin, canlılar və onların yaranmaları haqqında düşünməyə başlayır.

**Darvin: Canlılar təsadüfən meydana gəldilər? Yaxşı, o zaman tovuz quşunun bu qədər mükəmməl tüklərə sahib olmasını necə açıqlaya bilərəm ki, bu vəziyyət məni xəstə edir.**

Sonrakı illərdə Darvin tədqiqatlarını davam edir. Ancaq o dövrdəki qeyri-kafi və primitiv vasitələrlə hüceyrələri araşdırmağa çalışdığı üçün bir çox yanılmaya düşər.



**Darvin: Hüceyrələr çox əhəmiyyətlidir... Əvvəlcə onların varlığına izahat gətirməliyəm.**

Lakin Darvin, əlindəki primitiv vasitələrlə, əslində bir çox hissədən ibarət olan hüceyrələri yalnız bir ləkə olaraq görmüşdür.

Əlindəki primitiv vasitələrlə əldə etdiyi bu səhv nəticələri doğru zənn edən Darvin sevinir.



**Darvin sevincdən tullanır və qışqırır: Hüceyrələr yalnız bir nöqtədir... Hər halda təsadüfən meydana gəlmişlər.**

Bu səhv düşüncəyə düşən Darvinin cavab verməli olduğu bir çox sual vardır:

**(Darvin özündən soruşur): Dünyada bir çox canlı növü var. Yaxşı, bunlar necə oldu ki tək, bir hüceyrədən meydana gəldi?**



Darvin səhv etsə də, düşündüyünü doğru hesab edərək təkamül nəzəriyyəsini irəli sürür. Ona görə, canlılar cansız maddələrdən təsadüfən meydana gəlmişdir. Əvvəl xəyali ilk hüceyrə, necə olduğunu açıqlaya bilmədiyi bir şəkildə meydana gəlmiş, sonra bütün canlılar bu hüceyrədən təkamülləşmişdir.

Darvinin bu yanılmasında ateist, yəni Allaha inanmayan biri olmasının təsiri böyükdür. Çünki bu nəzəriyyə ilə ateist olmasını dəstəkləyən bir düşüncə ortaya atmış olacaq.

Darvin fikirlərini 1859-cu ildə nəşr etdiyi "Növlərin mənşəyi" adlı kitabında açıqlayır.



Kitabda izah edilən səhv və yalan məlumatlar, o dövrdə Allaha inanmayan bəzi insanlardan böyük dəstək görür.

Buna baxmayaraq, Darvin rahat deyil, çünki iddialarından dərhal sonra ortaya çıxan elmi kəşflər onu çox çətin vəziyyətə salmaqdadır. O dövrdə avstriyalı botanik olan Gregor Mendel, “Mendel qanunu” adını verdiyi elmi çalışması ilə Darvinin iddiası olan təkamül nəzəriyyəsinin mümkün olmadığını isbat edirdi.

**(Darvin narahat və bədbəxt bir şəkildə düşünür): Mendel qanunlarını kəşf etmiş. Mən nə edəcəyəm indi?**



Təkamül nəzəriyyəsinin iddialarına baxdıqda, Darvinin canlılığı sadə bir birləşmə olaraq təyin etdiyi aydın olar. Ancaq həqiqət belə deyil. Bir gün Darvinin iddialarına inanmayan bir dostu onun yanına gəlir və onunla söhbətə başlayır:

Darvinin dostu: Çarlz! Sənin iddiaların heç də inandırıcı deyil. Qüsursuz bir quruluşa sahib canlılar cansız maddələrdən təsadüflərin nəticəsi olaraq meydana gələ bilməz. Belə bir şey əsla reallaşa bilməz.

Darvin: Nə üçün olmasın? Dünyanın yaşı çox böyükdür. Məncə bu müddət ərzində cansız maddələr bir yerə gəlib canlıları meydana gətirmiş ola bilər.

Darvinin dostu: Sən insanların, balıqların, atların, bitkilərin qısaca hər şeyin külək və günəş şüaları ilə təsadüfən meydana gəldiyini iddia edirsən, amma bu kimsəyə inandırıcı gəlmir. Hələdə buna israr edirsən?



**Darvin: Bəli.**

Darvinin dostu (səbirlə təkrar soruşur): Eyni zamanda mükəmməl quruluşa sahib bütün canlıların bir hüceyrənin təsadüflər nəticəsində çoxalıb, yenə təsadüflər nəticəsində bir yerə gəlməsi ilə meydana gəldiyini iddia edirsən?



**Darvin: Bəli**

Darvinin dostu: Ancaq əlində heç bir qəti dəlil yoxdur, sən yalnız təxmin edirsən. Əgər bunların təsadüfən reallaşdığına inanırsansa; bu, sənə

lazımlı şərtlər təmin edildiyi təqdirdə, sən də bir təcrübədə hüceyrəni asanlıqla meydana gətirə bilərsən deməkdir!

**Darvin (qısa bir səssizlik çökər): ...Düşünürəm ki, meydana gətirə bilərəm.**

Darvinin dostu: Sənin bu nəzəriyyəni irəli sürərkən düşünmədiyin bir nöqtə var ki, o da təbii mühitdə şüur yoxdur. Yəni daş, torpaq, ildırım, günəş şüaları düşünə bilməz və təcrübə edə bilməzlər. Təcrübə edərkən əhəmiyyətli bir mövzu daha var. Sən daş, torpaq kimi şüursuz deyilsən, çünki sən və bütün insanlar düşünə bilmə qabiliyyətinə sahibdir. Təcrübəni edərkən bu üstünlüyünü də istifadə edəcəksən, amma görəcəksən ki, bu da nəticəni dəyişdirməyəcək. Cansız varlıqlardan şüurlu və canlı bir varlıq çıxara bilməzsən.



**Darvin (dərin bir səssizlik çökər): ...**

Darvinin dostu: Nəzəriyyənin səhv olduğunu görməyin üçün, səninlə bir təcrübə edək. Bu təcrübəyə "Çəlləkli təcrübə" deyə bilərik.



## Darvin: Çəlləkli Təcrübə?

Darvinin dostu: Niyə narahat oldun? Sənin bu iddialarına görə, bir çəllək və uyğun maddələr sənin üçün yetərli olmalı deyil?

## Darvin: Ümid edirəm.

Darvinin dostu: Həmçinin bu təcrübədə nəyə ehtiyac duyursansa onu da istifadə edə bilərsən. Hər şeyin ölçüsünü istədiyin kimi təyin edə bilərsən.



Darvin (öz-özünə düşünür): Təcrübədəki mühit təbii mühitə görə çox daha üstündür, istədiyimi qoya bilər və nəzəriyyəmi isbat edə bilərəm.

Darvinin dostu: O zaman gəl, bu təcrübədə olacaqları birlikdə xəyal edək. Hər şeyi hesaba qataraq düşünək.



**Darvin: Oldu.**

**Darvinin dostu: Ancaq sənə bunu qəti olaraq söyləyə bilərəm ki, sonunda müvəffəqiyyətsiz olduğunu görəcəksən. Nə edirsən et cansız maddələrdən canlı əldə edə bilməyəcəksən.**

Söhbət sona çatdıqda Darvin və dostu bütün mərhələləri düşünüb, lazımlı hazırlıqlara başlayarlar. Əvvəlcə Darvin təcrübəsini etmək üçün bir dükandan çəllək alar.



**Darvin: Bir çəllək satın almaq istəyirəm.**

Sonra canlılığın quruluşunda olan elementləri təmin edər.

**Darvin: Karbon burada, fosfor da tamam və də son olaraq maqnezium.**



Darvin, təcrübəyə başlamaq üçün yanına köməkçi də götürərək hazırlıqlarını tamamlayar.

**Darvin: Hər şey tamam. İstilik və nəm qaynaqları da hazırdır.**

Darvin ilk olaraq elementləri uyğun ölçülərdə su dolu çəlləyə yerləşdirər.



**Darvin: Bəli... Bir az da dəmir əlavə edək.**

Darvin elementlərin birləşməsində Günəşin də əhəmiyyətli rol boynuna götürdüyünü düşündüyündən, köməkçisindən qarışığı isitməsini istəyər.

**Darvin: Diqqət yetir, çox isti olmasın əsla.**



Darvin ildırımları da unutmaz. İldırımların bolca olduğu yağışlı bir havada çəlləyini çölə çıxarar.

**Darvin (təəccüblü şəkildə havaya baxaraq): Bir ildırım daha gözləyim görəsən?**

Darvin zəlzələlərin də ola biləcəyini hesaba qatar. Qarışığın olduğu çəlləyini köməkçisi ilə birlikdə müəyyən fasilələrlə yelləyər.



**Darvin: Bir az yavaş ol. Maddələr tökülməsin.**

Köməkçisi bu sırada, “nə qəribə təcrübədir” deyə düşünməkdədir.

Ayrıca çəlləkdəki maye, bəlkə xeyir edər deyə, arada bir qarışdırılar.



Darvin: Çox yaxında ilk hüceyrə meydana gəlməlidi.

Köməkçisi düşünür: Heç düşünmürəm!

Darvin: Çömçə ilə necə qarışdırdığımı yaxşı izlə.



**Köməkçisi düşünür: Mənim nə işim var burada?**

Darvin lazımlı əməliyyatları etdikdən sonra qarışığı nəzərdən keçirməyə qərar verər.

**Darvin: Artıq böyük gün gəldi. Mənə qarışıqdan bir miqdar gətirərsən?**



**Köməkçisi: Tamam, dərhal gətirirəm.**

Darvin çəlləkdəki qarışığı tökər. Köməkçisi nələr olacağını maraqla izləməkdədir. Darvin primitiv mikroskopu ilə qarışığı araşdırmağa başlayar.

**Darvin: Baxaq neçə hüceyrə yaranmış?**



Lakin çəlləkçi Darvin birdən hirslə qışqırar. Heç gözləmədiyi bir nəticə ilə qarşılaşmışdır.

**Darvin: Bu nə deməkdir?**

**Köməkçisi: Nə oldu Darvin?**



**Darvin: İnana bilmirəm... Bir səhv olmalıdır.**

**Darvin (çox kədərli bir səslə): Heç bir şey yoxdur.**

**Darvin: Harada səhv etdik görəsən? Madam olmadı o zaman yenidən başlayacağıq.**



Uzun bir müddət üzərində işlədiyi bu ilk təcrübəsində çəlləkçi Darvin müvəffəqiyyətsiz olmuşdu. Lakin həqiqətləri görüb, canlıların bu şəkildə meydana gələ bilməyəcəyini qəbul etmək yerinə, səhv etmiş ola biləcəyini düşünərək yeni bir sınağa qərar verər.

**Darvin: Bu ola bilməz, mütləq bir yerdə səhv etmiş olmalıyam. Bir az düşünüm. Azot az oldu yəqin. Düşünürəm oksigen miqdarını da azaltmalıyam.**

Və hər şey yenidən başlayar...



**Darvin: Bu dəfə daha sürətli qarışdıracağam. (Köməkçisinə səslənərək) İstiliyi aşağı salaq.**

Bunun üzərinə köməkçisi atəşin bir hissəsini söndürər.

**Darvin: Daha güclü yelləməliyik. Bir yoldaşını da çağır.**

Bir adam da gəlir və birlikdə çəlləyi yelləyərlər.

## Darvin: Yelləyin... Daha sürətli yelləyin.

Bu şəkildə təcrübə illər boyunca sürər... Darvin nəzəriyyəsini sübut etmək üçün boşuna çalışmaqdadır:




## Darvin: Daha çox ildırım düşsə olarmı görəsən?

Darvin arada sırada təcrübəni dayandırıb mikroskopu ilə qarışıqda nələr baş verdiyini araşdırar. Ancaq nəticədə heç bir dəyişiklik yoxdur.

**Darvin: Olmur... Olmur...**

**Köməkçisi: Qaçmanın tam zamanı...**

**Darvin: Gəl bura... Qaçma... Bu səfər olacaq, bacaracağam... Söz verirəm.**



Uzun illər keçmişdir... Amma yenə dəyişən bir şey yoxdur. Darvin hələ də bacara bilməmişdir.

## Darvin: Mən nə edəcəyəm indi?

**Darvin: Hər şeyi sınadım. Amma nə bir canlı, bir dənə hüceyrə belə meydana gətirə bilmədim. Hər şeyi sınadım, hər üsulu istifadə etdim, amma heç cür bacara bilmədim.**

**Darvin: Görəsən içinə bir ilbiz atıb, təcrübədə yarandığını deyim?... Amma xeyr, digərləri kimi bu yalanım da ortaya çıxar.**

Bir müddət sonra Darvin və dostu təkrar bir yerə gəlirlər və təcrübə haqqında söhbətə başlayarlar.

**Darvinin dostu: Nə deyirsən Çarlz? Təcrübənin müvəffəqiyyətsizliyə uğradığını özün gördün, artıq fikirlərindən imtina etmisən hər halda.**



**Darvin: Xeyr fikrim dəyişmədi. Sən nə desən də, mən hələ də cansız maddələrdən canlılığın meydana gələ biləcəyinə inanıram.**

**Darvinin dostu: Çox yanılırsan. Canlılıq xüsusi bir dizayn tələb edir. Heç bir şey təsadüfən meydana gələ bilməz.**

**Darvin: Mənim iddialarıma görə hər şeyin təsadüfən meydana gəlməsi lazımdır. Gözləyək, görək.**

Darvin və dostu bu söhbətdən sonra ayrılarlar. Aradan çox uzun illər keçər. Darvin ölər...

İyirminci əsrin əvvəllərində çox əhəmiyyətli elmi kəşflər meydana gəlməyə başlayar. Bu hadisələr Darvinin nəzəriyyəsinin nə qədər səhv olduğunu bir-bir sübut edər.



1900-cü illərin əvvəllərində genetika elmi ortaya çıxır.

Qısa bir müddət sonra genlər və xromosomların quruluşu kəşf edilir.

1955-ci ildə Ceyms Watson və Francis Crick adlı iki elm adamı DNT adı verilən molekulun quruluşunu ortaya çıxarırlar. DNT-ni qısaca belə tanıdaq:

Hüceyrələrin hər birinin nüvəsində DNT adında bir molekul olar. DNT insan bədəninə aid bütün məlumatları ehtiva edir. Sizin saçınızın və ya gözlərinizin rəngi, iç orqanlarınız, xarici görünüşünüz, boyunuzun uzunluğu kimi bütün məlumatlar DNT-də şifrəli olaraq var. DNT-də çox böyük miqdarda məlumat vardır. Bunun nə qədər çox olduğunu anlamaq üçün belə bir müqayisə edə bilərik: Əgər DNT-dəki məlumatları kağıza yazsaq, hər biri 500 səhifə olan 900 clddən ibarət olan nəhəng bir kitabxana meydana gətirməmiz lazım idi. Bu ensiklopediyaları yerləşdirmək üçün isə bir futbol sahəsi uzunluğunda kitabxanaya ehtiyacımız olardı. Ancaq bu qədər çox məlumat bizim gözümüzlə belə görə bilməyəcəyimiz qədər kiçik olan bir molekula sığdırılmışdır. DNT, hüceyrənin təsadüfən meydana gələ bilməyəcəyini qəti olaraq isbat edər. Allahın varlığını açıq-aşkar ortaya qoyan saysız dəlildən biridir.

Yuxarıda saydıqlarımız, əsrimizdəki kəşflərin çox kiçik bir hissəsidir. Hər elm sahəsi təkamülün etibarsızlığını ayrı-ayrı ortaya qoyar. Ancaq hər şeyə baxmayaraq təkamülçülər Darvinin yalanlarından imtina etməzlər. Hətta bu yalanlara yenilərini əlavə edərlər. Amma bunlar da Darvinin məşhur çəllək təcrübəsini müvəffəqiyyətlə başa vurmaz. Çünki

təkamülçülər hələ də elmi düşünməzlər. Canlılardakı mükəmməl dizaynın Yaradıcısının Uca Allah olduğunu qəbul etməzlər.



Yaxşı, aradan keçən zaman Darvinin nəzəriyyəsi ilə əlaqədar nələri dəyişdirmişdir? Təkamül nağılına inanan və inanmayan elm adamlarının söhbətlərindən bunu görək:

**Elm adamı 1: Darvinin imkanları məhdud idi. Onun zamanında elm səviyyəsi aşağı idi. Təkamül o şərtlərdə isbat edilə bilməzdi.**

**Elm adamı 2: Onun edə bilmədiyini bəlkə biz edəcəyik. Hüceyrənin təsadüfən meydana gəldiyini isbat edəcəyik.**

**Elm adamı 3: Mən sizin kimi düşünmürəm. Ümidlərinizi bağladığınız çəlləkdən heç bir canlı çıxmayacaq.**



Elm adamı 1: Laboratoriyalarımız texnoloji alətlərlə doludur. Artıq canlıları daha yaxından tanıyırıq. Hüceyrənin quruluşunu kəşf etdik. Bəlkə insan oğlu çox yaxında bir canlı belə yarada bilər.

**Elm adamı 2: Bunu təkrar təcrübə edə bilərik.**

Elm adamı 3: Çox səhv düşünürsünüz. Sizin kimi düşünənlər təxminən 100 ildir çəlləklərin başında gözləyirlər. Yüzlərlə il daha gözləsəniz də bir şey olmayacaq. Xatırlasanız Darvin də istədiklərinə çata bilməmişdi.

**Elm adamı 1: Niyə olmasın? Bəlkə bacararıq.**

**Elm adamı 2: Sınayaq, görək.**

Elm adamı 3: Xeyr. Milyonlarla il də gözləsəniz olmayacaq. Həyatın başlaması üçün canlılarda olan elementlərin bir yerə gətirilməsi yetərli deyil. Canlıları yalnız Allah yaradar və onlara həyat verir.



Üç elm adamı bu söhbətin sonunda bir qərar alarlar.

**Elm adamı 3: Tamam madam imkanlarınız Darvindən daha çoxdur, o zaman əlimizdəki imkanların hamısını istifadə edib bir təcrübə edək. Nəticənin nə olduğunu siz də görün bəlkə o zaman həqiqəti qəbul edərsiniz.**

**Elm adamı 1: Tamam.**

**Elm adamı 2: Dərhal başlayaq.**

Və təcrübəyə təkrar başlayarlar...

**Elm adamı 1: Dünyanın ilk dövrlərindəki atmosferdə olduğunu düşündüyüm qaz qarışığı hazırdır.**



**Elm adamı 2: Süni elektrik boşaltma mənbəyi də hazırdır.**

**Elm adamı 1: Qaz qarışığını 100 dərəcə istilikdə bir həftə qaynadaq.**

**Elm adamı 2: Qarışığa davamlı elektrik də verək. Bu işə yaraya bilər.**

Qarışığa nizamlı olaraq elektrik verilər və qarışıq davamlı isidilər. Nəticə nə olacaq?



**Elm adamı 1: Bir həftəni tamamladıq. Qarışığı təcrübə balonundan dərhal çıxar.**

**Elm adamı 2: Amma təbiətdə belə bir cihaz yoxdur ki...**

**Elm adamı 1: Boş ver. Başqa cür bacara bilmərik. Hiylə edirik, amma olsun.**

**Elm adamı 2: Oldu. Çox hiyləgərcəsinə düşünmüsən. Baxaq işə yaracaqmı?**

Elm adamları qarışığı araşdırdıqlarında olduqca təəccüb edərlər. Hüceyrə yenə meydana gəlməmiş.

**Elm adamı 1: İnana bilmirəm... Yenə olmadı.**



**Elm adamı 2: Hər şeyi etdik. Necə olmaz?**

**Elm adamı 1: Hər imkanımız var, hər şeyi sınayırıq, amma tək hüceyrə belə yarada bilmədik.**

**Elm adamı 2: İstəyirsən gəl ən yaxşısı biz bu işdən əl çəkək...**

Bu təkamülçü elm adamlarının qurduqları xəyal da, Darvinin qurduğu xəyal kimi sona çatar.

**Elm adamı 3: Gördünüzmü? Sizə söyləmişdim. Cansız maddələr öz başlarına canlılığı meydana gətirə bilməzlər. Bu yalnız Allaha iman etməyən bəzi insanların ortaya atdığı bir yalandır...**



**Elm adamı 1 (israrla): 21-ci əsrə qalmaz biz haqlı çıxarıq.**

**Elm adamı 2: Hələlik bacara bilmədik bəlkə, amma yaxında edəcəyik, görəcəksən.**

Elm adamı 3: Bəylər! Bu mümkün deyil. Artıq bunu qəbul edin. Təkamül nəzəriyyəsini sübut etmək üçün təbiət şərtlərində olmayan şeyləri belə təcrübəyə qatdınız. Buna göz yumuldu. Sizə istədiyiniz hər imkan verildi. Həmçinin bütün təcrübəni istədiyiniz plan və proqram içində icra etdiniz.

**Elm adamı 1: Bəli nə olsun?**

Elm adamı 3: Siz bir plan quraraq təcrübə etdiniz. Təcrübəni təsadüflərə buraxmadınız, hər mərhələni hesabladınız. Amma bildiyiniz kimi cansız maddələr bir yerə gəlmək üçün qərar alıb bunu tətbiq edə bilməzlər. Siz bunları etdiyiniz halda yenə də bacara bilmədiniz. Üstəlik yalnız bir neçə həftə və ya il deyil, nə qədər gözləsəniz yenə də bunu bacara bilməzsiniz. Sizdən sonra gələnlərə vəsiyyət edib yüz minlərlə hətta milyonlarla il bu təcrübəni davam etdirsəniz yenə də o çəlləyin içindən qüsursuz sistemləriylə bir canlı çıxara bilməzsiniz.

Yaxşı siz bunu planlayaraq və bütün texnoloji imkanları istifadə edərək bacara bilmədiyinizə görə şüurlu olmayan varlıqlardan bir canlı meydana gətirmələrini necə gözləyə bilərsiniz?

Əvvəlcə bütün canlıların meydana gəlməsi üstün bir elm, qüsursuz bir dizayn və həssas bir ölçü tələb edir. Bu xüsusiyyətlər isə yalnız, kainatı yoxdan var edən, sonsuz ağıl sahibi Uca Rəbbimizə aiddir. Canlılar öz başına ortaya çıxmamış, aləmlərin Rəbbi Allah tərəfindən bir anda yaradılmışlar.



Çəlləkçi Darvin kimi dövrümüzə qədər yaşamış bütün təqibçiləri də haqsız çıxmışdılar. Lakin içlərindən bəziləri bu çəlləyə olan inanclarını itirmədi. Ən məşhur təkamülçü elm adamları belə bu çəlləyin başında ümidlə gözlədilər. İndi iki təkamülçü elm adamının düşdükləri vəziyyəti görək.

**Təkamülçü 2: Necə olar? Niyə canlı meydana gəlmir? Hər şeyi sınayırıq.**

**Təkamülçü 1: Yaradılışa inananlara nə cavab verəcəyik? Üstəlik bütün elmi araşdırmalar onların dediklərini təsdiqləyir.**

**Təkamülçü 2: Nə olursa olsun yaradılışı qəbul edə bilmərik. İnsanlar Allaha inananların haqlı olduğunu anlamamalıdır. Yalan danışmağa davam etməliyik. Başqa çarəmiz yoxdur.**



Bu elm adamları da heç bir nəticəyə gələ bilməzlər.

Sizə indi bədənimizi meydana gətirən bir hüceyrəni tanıdacağıq.

**Salam! Mən bir hüceyrəyəm. Sizin bədəninizdə təxminən 100 trilyon yoldaşım var. Bütün bədəninizi bizlər meydana gətiririk. Ananızın qarnında bölünə-bölünə sizin yaranmanızı təmin edirik. Bütün həyatınız boyunca bədəninizdəki bütün fəaliyyətlərdə vəzifə götürürük. Siz nəfəs alarkən, yeriyərkən, yediyiniz yeməkləri həzm edərkən, görərkən və**

**eşidərkən hər zaman sizin üçün çalışırıq. İçimizdə enerji yaradan stansiyalar; bir bölgədən digərinə məhsulları daşıyan daşıma sistemləri, boru xətləri; bu məhsullarla əlaqədar məlumatların qeyd olunduğu məlumat bankları və laboratoriyalar var.**

**Bizi meydana gətirən zülalların təsadüfən meydana gəlməsi qeyri-mümkündür. Bu səbəbdən biz də təsadüfən meydana gələ bilmərik. Həm içində zavodlar, məlumat bankları, laboratoriyalar, stansiyalar və daşıma sistemləri olan bu möcüzə sistem necə təsadüfən meydana gələ bilər ki? Əlbəttə ki, meydana gələ bilməz.**

İndi bəzi məşhur elm adamlarının canlıların təsadüfən yarana bilməyəcəyini izah edən sözlərini oxuyacaqsınız:




Təsadüflər nəticəsində canlı bir hüceyrənin yarana bilməsi ilə, qasırğanın dəmir yığınındakı parçaları sovuraraq təsadüfən təyyarəni meydana gətirməsi arasında bir fərq yoxdur. (Sir Fred Hoyle)

Ən sadə canlı hüceyrəsinin sahib olduğu mexanizm belə, insan oğlunun indiyə qədər etdiyi, hətta xəyal qurduğu bütün maşınlardan daha çox qüsursuzdur. (W. H. Thorpe)




Açıq şəkildə görüldüyü kimi bir çox elm adamı hüceyrədəki möcüzənin fərqindədir. Cansız maddələrdən təsadüfən canlıların meydana gəlməsinin qeyri-mümkün olduğunu görürlər. Çəlləkçi Darvin və təkamülçülər hüceyrələr və canlılar haqqında bir çox səhv iddialar etmişlər. Amma siz artıq hər şeyi yaradanın, Uca Allah olduğunu çox yaxşı bilirsiniz.

FƏSİL

# Nəticə

Bu kitabda, sizin bir daha gördüyünüz kimi hüceyrəni yoxdan yaradan, ona analarınızın qarnında bölünmə əmrini verən Allahdır. Allah canlıları bu hüceyrələrdən yaratmışdır. Hüceyrələrdən yaradılan çiçəklərin, quşların, balıqların, meyvələrin və digər canlıların gözəlliyi Allahın üstün sənətinin dəlillərindən yalnız biridir.

Darvin ortaya atdığı təkamül nəzəriyyəsində, cansız maddələrdən canlılığın təsadüflərin əsəri olaraq meydana gəldiyini iddia etməkdədir. Ancaq uşaqlar unutmamalısınız ki, bir canlının yaranması üçün yenə bir canlının olması lazımdır. Ata-analarımız canlıdır. Onların ana və ataları da canlıdır. Bu canlılıq ilk insan olan hz. Adəmə qədər uzanar. Onsuz da hz. Adəmi yaradan, canlılığın sahibi olan Uca Allahdır. Tarix boyunca heç bir cansız maddədən canlı bir varlıq meydana gəlməmişdir. Müasir elmin ortaya qoyduğu dəlillər, canlıları Allahın yaratdığını bir daha sübut etməkdədir. Ancaq Çarlz Darvin və təqibçiləri böyüklük göstərdikləri və Allahın varlığına inanmaq istəmədikləri üçün bu həqiqəti qəbul etməmişlər. Onlar, insanları yalanlarla aldatmağı seçmişlər. Ancaq bu yalanlarından ibarət olan təkamül nəzəriyyəsinə indiyə qədər tək bir dəlil belə tapılmamışdır. Bu kitabı təkamülçülərin məhz bu çarəsizliyini və təkamül nəzəriyyəsinin doğru olmadığını öyrənməniz üçün hazırladıq.

Unutmayın ki, elm baxımından hər şeyi əhatə edən Rəbbimiz, bizdən, Quran əxlaqını öyrənib, Onun əmrlərinə uyğun gəlməmizi istəməkdədir. Kainatdakı hər varlıq Onun üstün elminin dəlillərindəndir. Biz də, varlıqlardakı üstün elmi və sənəti görüb Allaha şükür etməliyik və Onun istədiyi kimi həyat yaşamalıyıq.

> *…"Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik. Şübhəsiz ki, Sən hər şeyi bilənsən, hikmət sahibisən!"*
>
> **(Bəqərə surəsi, 32)**

KİTAB HAQQINDA

**Sevimli uşaqlar! Kitabımıza niyə "Çəlləkçi Darvin" adını verdiyimizi maraqlanmısınız? Əlbəttə çəlləyin nə olduğunu çox yaxşı bilirsiniz, amma Darvini bəlkə bir çoxunuz bilmirsiniz. Açıqlayaq...**

Darvin, İngilis tədqiqatçının adıdır. Gördüyü iş isə, "insanlara çox böyük zərərlər verən bir nəzəriyyəni 150 il əvvəl ortaya atması" olaraq yekunlaşdırıla bilər.

Bəlkə jurnal, qəzet və ya kitablarda meymuna bənzəyən insan şəkillərinə, qədim dövrlərdə yaşadığı iddia edilən qəribə görünüşlü canlılara aid şəkillərə rast gəlmisiniz. Məhz bu şəkilləri düzəldən insanlar, Darvinin ardınca gedən insanlardır.

Bildiyiniz kimi canlı cansız hər varlığın yaradıcısı Allahdır. Sizi, ananızı, atanızı, qardaş-bacılarınızı, qohumlarınızı, yoldaşlarınızı, pişikləri, itləri, gözəl qoxulu çiçəkləri, nəhəng ağacları, rəngarəng kəpənəkləri, balıqları, quşları, qısacası bütün canlıları Allah yaratmışdır.

Darvinin arxasından gedən insanlar isə, Allahın yaratdığı bu gözəllikləri görməməzlikdən gəlir, hər şeyin təsadüfən yarandığını iddia edirlər. Onlar, atomların təsadüfən bir yerə gələrək ilk canlıları meydana gətirdiyini, bu canlıların da zamanla dəyişərək bugünkü canlıları əmələ gətirdiyini iddia edirlər.

Kitabımızda Darvin tərəfdarı insanlara bir təcrübə etmələrini tövsiyə edirik. "Çəllək təcrübəsi" adını verdiyimiz bu təcrübədəki məqsədimiz, Darvinin iddialarının nə qədər ağıl və məntiqdən kənar olduğunu göstərməkdir.

— HARUN YƏHYA —

**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.